UNEC
1930

UNEC WOMEN RESEARCHERS COUNCIL

# WOMEN RESEARCHERS COUNCIL BOARD

## AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS (UNEC)



**dos. İza Qiqauri - Gürcüstanın St. Andrey Universitetinin dosenti**

İza Qiqauri bakalavr təhsilini İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində Xarici dillərin filologiyası ixtisası üzrə almış, Almaniyanın Bochum Ruhr Universitetində 1 illik tədqiqat proqramında iştirak etmişdir. Daha sonra Hollandiya Biznes Məktəbində MBA və Amerika Humanitar Elmlər Universitetinin Tbilisi Kampusunda magistratura təhsilinə yiyələnmişdir. Doktorantura təhsilini İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində Biznesin idarə olunması ixtisası üzrə alan İ.Qiqauri dissertasiya işini tamamlayaraq Ph.D. elmi dərəcəsinə layiq görülmüşdür.

Tədqiqat sahəsini Marketinq İdarəetməsi; Biznes və Marketinq Araşdırmaları; Korporativ Sosial Məsuliyyət (KSM); İnsan Resurslarının İdarə Edilməsi (HRM); Liderlik; Təşkilati Davranış; Sosial Sahibkarlıq üzrə araşdırmalar təşkil edir.

Müxtəlif illərdə Qafqaz Biznes Məktəbində müəllim, professor assistenti vəzifələrində çalışıb. Hal-hazırda St. Andrews Georgia Universitetinin dosentidir. Doktorluq və magistr dissertasiyalarının eksperti, opponenti və elmi rəhbəridir.

Emerald Publishing, Redfame Publishing, IGI Global, Frontiers və s. beynəlxalq jurnalların redaksiya heyətinin üzvü və rəyçisidir.

Bir sıra yerli və beynəlxalq konfransların məruzəçisi və iştirakçısı olub.

Tədqiqat sahəsi üzrə nüfuzlu elmi nəşrlərdə dərc olunan 150-yə yaxın məqalənin müəllifidir. Belə ki, onun Research Gate elmi bazasında məqalə sayı 119, istinad sayı 637: Google Scholar elmi bazasında məqalə sayı 64, h-indeksi 14, i-10 indeksi 22, istinad sayı 807 təşkil edir.

https://www.iriem.org/pro/memberdetail.aspx?ID=431



**dos. Zarina Burkadze - Gürcüstanın İlya Dövlət Universitetinin Siyasi Elmlər kafedrasının dosenti**

Z.Burkadze bakalavr təhsilini İlya Dövlət Universitetində İngilis və Alman dilləri ixtisası üzrə, magistratura təhsilini isə Gürcüstan İctimai Əlaqələr İnstitutunda Beynəlxalq münasibətlər ixtisası üzrə almışdır. Sürix Universitetində Siyasi elmlər üzrə doktorantura təhsili alan Z.Burkadze "Gürcüstanın demokratikləşdirilməsində rəqabət aparan xarici təsirlər və daxili koordinasiya: Aİ, NATO, ABŞ və Rusiya" mövzusunda dissertasiya işini müdafiə edərək Ph.D. elmi dərəcəsinə layiq görülmüşdür.

Tədqiqat sahəsini Rəqəmsal erada dövlət idarəçiliyi və demokratiya; Rəqəmsal İdarəetmə; Demokratiya və demokratikləşmə; Siyasi elmlər üzrə tədqiqat dizaynı; Postsovet dövlətlərində partiya siyasəti və seçki sistemləri və s. üzrə araşdırmalar təşkil edir.

| | |
|---|---|
| | Əmək fəaliyyətinə 2007-ci ildə Gürcüstan Ədliyyə Nazirliyinin Baş Prokurorluq İdarəsində tərcüməçi olaraq başlamış, 2014-2018-ci illərdə isə Soxumi Dövlət Universitetinin Sülh Araşdırmaları Mərkəzində müəllim vəzifəsində çalışmışdır. Hal-hazırda Gürcüstanın İlya Dövlət Universitetinin Siyasi Elmlər kafedrasının dosentidir.<br>2013-cü ildə Tempus mübadilə proqramı çərçivəsində Böyük Britaniyanın Qlazqo Universitetində qonaq tədqiqatçı olaraq təcrübə keçmişdir.<br>2019-cu ildə Corc Vaşinqton Universiteti Elliot Beynəlxalq Münasibətlər Məktəbinin Fulbrayt proqramı üzrə təqaüdçüsü olmuşdur.<br>2021-ci ildən Gürcüstan İctimai Rəyin Öyrənilməsi Assosiasiyasının təsisçisi; Gürcüstan Gənc Hüquqşünaslar Assosiasiyasının üzvü; Gənc Hüquqşünaslar Assosiasiyasının Seçkilərin Monitorinqi və Metodologiyası üzrə siyasi eksperti; Avropa Siyasi Araşdırmalar Konsorsiumunun üzvüdür.<br>Gürcü, ingilis, rus, alman dillərini bilir.<br>Tədqiqat sahəsi üzrə 50-yə yaxın elmi məqalənin müəllifidir.<br>https://faculty.iliauni.edu.ge/arts/zarina-burkadze/ |
|  | **Ph.D. Ana Belén Perianes Bermúdez - İspaniyanın Gutierrez Mellado Universitetinin dosenti**<br>Ph.D. Ana Belén Perianes Bermúdez bakalavr və magistr təhsilini Basque Country Universitetində Siyasi və idarəetmə elmləri üzrə almışdır. Doktorantura təhsilini Basque Country Universitetində İctimai hüquq və beynəlxalq münasibətlər ixtisası üzrə alan A.Bermudez "Corc Buş Administrasiyasının (2001-2008) xarici siyasətinin təhlili və onun beynəlxalq təhlükəsizlik üçün nəticələri" mövzusunda dissertasiya işini müdafiə edərək Ph.D. elmi dərəcəsinə layiq görülüb. UNED General Gutiérrez Mellado Universitetinin Sülh, Təhlükəsizlik və Müdafiə Araşdırmaları İnstitutunun postdoktoral tədqiqatçısı olmuşdur. Tədqiqat sahəsini Ümumi təhlükəsizlik və müdafiə siyasəti; Aİ-Mərkəzi Asiya əlaqələri və Yeni İpək Yolu; Amerikanın xarici siyasəti; Qadınlar, Sülh və Təhlükəsizlik; İnsan təhlükəsizliyi və demokratik idarəetmə üzrə araşdırmalar təşkil edir. Bir sıra beynəlxalq layihələrin işçi qrupunun rəhbəri və üzvü olmuşdur. Müxtəlif beynəlxalq sertifikatlı kursların və treninqlərin iştirakçısı olmuş, beynəlxalq sülh və təhlükəsizlik üzrə müxtəlif ixtisas kurslarında iştirak etmişdir. Eyni zamanda Madrid Diplomatik Məktəbinin Avropa Tədqiqatları üzrə Diplomuna malikdir. Tədqiqat sahəsi üzrə nüfuzlu elmi nəşrlərdə dərc olunan 50-yə yaxın elmi məqalənin müəllifidir. |
|  | **Szilvia Kovacs – Macarıstanın Dunaújváros Universitetinin doktorantı.**<br>S.Kovacs ilk ali təhsilini 1999–2004-cü illərdə Macarıstanın Széchenyi István Universitetində “İqtisadiyyat” ixtisası üzrə, 2-ci ali təhsilini 2004-2008-ci illərdə Macarıstanın Eötvös Loránd Universitetində “Sosiologiya” ixtisası üzrə alıb. 2012–2020-ci illərdə Avstriyanın Vyana Texnologiya Universitetinin Sosiologiya və İqtisadiyyat elmləri üzrə doktoranturasında təhsil almışdır. 2018-ci ildən Macarıstanın Dunaújváros Universitetinin, həmçinin 2021-ci ildən Széchenyi István Universitetinin Regional və İqtisadiyyat |

| | |
|---|---|
| | elmləri üzrə doktorantıdır. S.Kovacs 2007–2008-ci illərdə Budapeştdə CEGEDIM HUNGARY LTD. şirkətində bazar araşdırmaçısı, 2008–2009-cu illərdə İsveçin CEGEDIM SWEDEN AB. şirkətində bazar analitiki, 2009–2012-ci illərdə Macarıstan Elmlər Akademiyasının İctimai Elmlər Tədqiqat Mərkəzində kiçik elmi işçi, 2012–2016-cı illərdə Avstriya Elmlər Akademiyasında kiçik elmi işçi, 2016–2018-ci illərdə Macarıstanın FÜLEP EDUCATION LTD. şirkətində sosial-iqtisadi ekspert vəzifələrində çalışıb. 2010-cu ildən Macar Qadınları Elmdə Təşkilatının üzvüdür. Macar, ingilis, alman dillərini bilir.<br>https://www.uniduna.hu/en/for-students/mentor-teacher-system |
|  | **Ph.D. Ewelina İdziak – Polşanın Kazimierz Vielki Universitetinin baş müəllimi.**<br>E.İdziak bakalavr təhsilini 1998-2001-ci illərdə Poznan İqtisadiyyat Universitetində "Maliyyə və pul siyasəti" ixtisası üzrə, magistr təhsilini isə 2001-2003-cü illərdə həmin Universitetdə "Şirkətlərin iqtisadi siyasəti və strategiyası" ixtisası üzrə alıb. Daha sonra Vrotslav İqtisadiyyat Universitetinin doktoranturasına daxil olmuş və doktorluq dissertasiyasını tamamlayaraq Ph.D. elmi dərəcəsinə layiq görülmüşdür. Tədqiqat sahələrini Mühasibat uçotu; Sahibkarlıq; Bank işi; Maliyyə hesabatlarının təhlili; Korpo maliyyə; Maliyyə bazarı; Bank hüququ; Marketinq və maliyyənin əsasları; Biznes danışıqları; Milli Mühasibat Uçotu Standartları və s. istiqamətlər üzrə tədqiqatlar təşkil edir. Müxtəlif vaxtlarda PHIN Consulting şirkətində təlimçi, Polşanın Bydgoszcz İqtisadiyyat Universitetində baş müəllim, Bank Milleniumun Korporativ Bankçılıq Departamentinin regional direktoru, Atos Poland R&D şirkətinin komanda rəhbəri və biznes məsləhətçisi vəzifələrində çalışıb. Bir sıra yerli və beynəlxalq layihələrin, konfransların, simpoziumların iştirakçısı olub. Nüfuzlu elmi jurnallarda dərc olunan 50-ə yaxın elmi əsərin müəllifidir.<br>https://prawoiekonomia.ukw.edu.pl/jednostka/wydzial-prawa-ekonomii/zyciorysy-pracownikow-wpie/61908/mgr-ewelina-idziak |
|  | **Ləman Əlirzayeva - Azərbaycan Dövlət Iqtisad Universitetinin "Maşınlar, avadanlıqlar və proseslər" ixtisası üzrə doktorantı və UNEC-in Mühəndislik və tətbiqi elmlər kafedrasının müəllimi.**<br><br>L.Əlirzayeva bakalavr təhsilini 2012-2016-cı illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində “Texnoloji maşınlar və avadanlıqlar mühəndisliyi” ixtisası üzrə, magistr təhsilini isə 2017-2019-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetində “Sənayə mühəndisliyi” ixtisası üzrə alıb. 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universitetinin "Maşınlar, avadanlıqlar və proseslər" ixtisası üzrə doktorantıdır. Müxtəlif illərdə English School in Baku və British School in Bakuda ingilis dilini tədris etmişdir. Hal-hazırda UNEC-in Mühəndislik və tətbiqi elmlər kafedrasının müəllimidir. Tədqiqat sahəsi üzrə bir neçə elmi məqalənin müəllifi, həmçinin yerli və beynəlxalq konfransların, layihələrin iştirakçısı olub. Rus, ingilis, türk dillərini bilir.<br>https://www.linkedin.com/in/laman-allakhverdiyeva-94310725b/ |

| | |
|---|---|
|  | Dos. Ülke Hilal Çelik - Atatürk Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dosenti.<br>Ü.Çelik bakalavr və magistr təhsilini Atatürk Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində almış, 2012-2018-ci illərdə isə həmin Universitetdə doktorantura təhsilini tamamlayaraq Ph.D elmi dərəcəsinə layiq görülmüşdür. Tədqiqat sahələrini Sosial və humanitar elmlər; İdarəetmə; İdarəetmə və təşkilatçılıq; İnsan resurslarının idarə olunması və s. istiqamətində tədqiqatlar təşkil edir. Ü.Çelik Atatürk Universitetində İnsan resursları Ofisinin İdarə Heyətinin üzvü, Rektorluğun koordinator köməkçisi, Şəxsi Məlumatların Qorunması Şurasının üzvü, Performansın Qiymətləndirilməsi Komissiyasının üzvü vəzifələrini yerinə yetirir. Müxtəlif illərdə Atatürk Universitetində İnsan resurslarının idarə edilməsi; Elmi tədqiqat metodları; İdarəetmədə effektiv ünsiyyət; Rəqəmsal idarəetmə və s. fənləri tədris etmişdir. Bir sıra yerli və beynəlxalq konfransların, simpoziumların, forumların, layihələrin iştirakçısı olub. Tədqiqat sahəsi üzrə 50-ə yaxın elmi məqalənin müəllifidir. Belə ki, Ü.Çelikin Google Scholar elmi bazasında h-indeksi 5 təşkil edir.<br>https://avesis.atauni.edu.tr/ulke.celik |
|  | **Dos. Orsolya Falus – Macarıstanın Pecs və Dunaújváros Universitetlərinin dosenti.**<br>O.Falus ali təhsilini Pécs Universitetində "İngilis dili və ədəbiyyat" ixtisası üzrə almış, daha sonra həmin universitetin doktoranturasında təhsilini davam etdirmiş və dissertasiya işini müdafiə edərək dövlət və hüquq elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2014-cü ildən Pecs Universitetinin, həmçinin Dunaújváros Universitetinin dosentidir. Müxtəlif illərdə Böyük Britaniyanın Exeter Universitetində, Almaniyanın Bayreuth Universitetində, ABŞ-ın Harvard Hüquq Məktəbində tədqiqatlar aparıb, bir sıra xarici universitetlərdə qonaq müəllim kimi mühazirələr deyib. 1999-2000-ci illərdə Pecs Hüquq Universitetində müəllim, 2000-2003-cü illərdə “Dr. Nagy – Dr. Falus” Hüquq bürosunda hüquqşünas, 2009-2012-ci illərdə Kaposvár Universitetinin İqtisadiyyat fakültəsində müəllim və 2012-2015-ci illərdə dosent, 2015-ci ildə Macarıstan Təhsil Akademiyasında Elm və tədris işləri üzrə direktor, 2015-2016-cı illərdə Macarıstanın Tomori Kollecində Beynəlxalq və strateji məsələlər üzrə prorektor vəzifələrində çalışıb. 2016-cı ildən Dunaújváros və Pecs Universitetinin dosenti olaraq fəaliyyət göstərir. “Beynəlxalq Hüquq və Cəmiyyət”, “İdarəetmə və İqtisadi Araşdırmalar”, “NALANS” (Narrative and Language Studies) jurnallarının Redaksiya Şuralarının üzvüdür. Bir sıra yerli və beynəlxalq konfransların, simpoziumların, forumların, layihələrin iştirakçısı olub. Tədqiqat sahəsi üzrə 50-ə yaxın elmi məqalənin müəllifidir. Belə ki, Orsola Falusun Google Scholar elmi bazasında məqalə sayı 18, h-indexi 2; Scopus elmi bazasında məqalə sayı 4, h-indeksi 1; Web of Science elmi bazasında isə məqalə sayı 1-dir.<br>https://scholar.google.com/citations?user=mqyLfxEAAAAJ&hl=hu |



**Əliyeva Solmaz Bəxtiyar qızı - Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi Tədqiqat İnstitutunun elmi işçisi**

S.Əliyeva bakalavr təhsilini Azərbaycan Dövlət Pedaqoji Universitetində “Kimya müəlimliyi” ixtisası üzə, magistr təhsilini isə Bakı Dövlət Universitetində “Kimya” ixtisası üzrə almışdır. 2015-2018-ci illərdə Bakı Dövlət Universitetinin “Yüksəkmolekullu birləşmələr kimyası” kafedrasının “Makromolekullar kimyası” ixtisası üzrə əyani doktoranturasında təhsil almış və “Butadien kauçuku və qrafit əsasında hibrid kompozitin oksidləşdirici xlorfosforlaşma reaksiyası ilə sintezi və tədqiqi” mövzusunda dissertasiya işini müdafiə edərək kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 2014-2016-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyası, Radiasiya Problemləri İnstitutu “Polimerlərin Radiasiya Kimyası və Texnologiyası” laboratoriyasında mühəndis, 2016-2018-ci illərdə Bakı Dövlət Universiteti “Metalkompleks katalizatorları” ETL-da əvəzçiliklə elmi işçi, 2019-2020-ci illərdə ADNSU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində (UFAZ) kimya laborantı kimi fəaliyyət göstərmişdir. Hal-hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində “Neftin, qazın geotexnoloji problemləri və kimya” Elmi Tədqiqat İnstitutunda elmi işçi vəzifəsində çalışır. 2021-ci il üçün elan olunmuş Azərbaycan Elm Fondunun “Gənc alim və tədqiqatçıların 6-cı qrant müsabiqəsi”nin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuşdur. S. Əliyevanın tədqiqat sahəsi üzrə Web of Science bazasında indeksləşən dövri elmi nəşrlərdə çap olunan məqalə sayı 10, h-indeksi 4, istinad sayı 36-dır.

https://www.linkedin.com/in/solmaz-b-aliyeva-phd-398464255/?originalSubdomain=az



**Ph.D. Tekla Szep - Macarıstanın Miskolc Universitetinin İqtisadiyyat fakültəsinin dosenti, Dünya və Regional İqtisadiyyat İnstitutunun direktor müavini**

Tekla Szep ali təhsilini 2004-2009-cu illərdə Macarıstanın Miskolc Universitetində "Regional inkişaf" ixtisası üzrə alıb. Doktorantura təhsilini 2009-2012-ci illərdə həmin universitetdə alan T.Szep 2013-cü ildə “Şərqi-Mərkəzi Avropada enerjinin iqtisadi rolu” mövzusunda dissertasiya işini müdafiə edərək Ph.D. elmi dərəcəsinə layiq görülüb. Tədqiqat sahələrini Enerji iqtisadiyyatı; Enerji səmərəliliyi; Rebound effekti; Enerji siyasəti; Enerji təhlükəsizliyi və s. istiqamətlər üzrə araşdırmalar təşkil edir. 2012-ci ildən Miskolc Universitetinin İqtisadiyyat fakültəsinin baş müəllimi, 2017- ci ildən dosentidir. 2019-cu ildən etibarən həmin universitetin Dünya və Regional İqtisadiyyat İnstitutunun direktor müavini vəzifəsində çalışır. Eyni zamanda Macarıstan Elmlər Akademiyasının Regional Davamlılıq Komitəsinin katibidir. Bir sıra yerli və beynəlxalq layihələrdə tədqiqat qrupunun rəhbəri, meneceri, qiymətləndiricisi, koordinatoru və s. kimi fəaliyyət göstərir. 2020-ci ildə Miskolc Universitetinin Fəxri Professoru mükafatına layiq görülüb. Macarıstan Elmlər Akademiyasının, Macarıstan Enerji

| | |
|---|---|
| | Assosiasiyasının, Macarıstan İqtisadi Birliyinin və s. ictimai təşkilatların üzvüdür. Tədqiqat sahəsi üzrə nüfuzlu elmi nəşrlərdə çap olunan 150-yə yaxın elmi məqalənin müəllifidir. Belə ki, T.Szepin Scopus elmi bazasında məqalə sayı 21, h-indeksi 5; Web of Science bazasında məqalə sayı 10, h-indeksi 3; Google Scholar elmi platformasında məqalə sayı 95, h-indeksi 11-dir.<br>https://www.uni-miskolc.hu/telefon/index.php?menu_id=2&myaction=details&key_field_value=3742<br>https://www.researchgate.net/profile/Tekla-Szep |
|  | **Catherine Odorige - Macarıstan Dunaújváros Universitetinin Sosial Elmlər İnstitutunun ictimai idarəetmə üzrə fəlsəfə doktoru**<br>Catherine Odorige bakalavr təhsilini 1994-1997-ci illərdə Nigeriyanın Benin Universitetinin İncəsənət fakültəsində, magistr təhsilini isə 2001-2004-cü illərdə həmin universitetinin “Sosial elmlər” fakültəsində alıb. Doktorantura təhsilini Macarıstanın Milli Dövlət Xidməti Universitetində alan C.Odorige elmi işini müdafiə edərək 2018-ci ildə Ph.D. elmi dərəcəsinə layiq görülüb. 2021-ci ildən Macarıstan Dunaújváros Universitetinin Sosial Elmlər İnstitutunun dosentidir. Tədqiqat sahəsini Dövlət idarəetməsi və siyasi elmlər; Beynəlxalq və Avropa konteksti; Avropa Birliyinə üçüncü ölkə vətəndaşlarının miqrasiyası və inteqrasiyası istiqamətində araşdırmalar təşkil edir. Bir sıra beynəlxalq layihələrin və sertifikasiyalı proqramların iştirakçısı olub. 2019-cu ildən Macarıstan Qaçqınlarla Əlaqələndirmə Assosiasiyasının mütəxəssisidir. Nüfuzlu elmi nəşrlərdə çap olunan 15-ə yaxın elmi məqalənin müəllifidir. Belə ki, C.Odorigenin Research Gate elmi bazasında çap olunan 6 məqaləsinə istinad sayı 20-dir.<br>https://www.researchgate.net/profile/Catherine-Odorige |
|  | **dos. Monika Garai Fodor – Macarıstanın Obuda Universiteti Károly Keleti Biznes və İdarəetmə Fakültəsinin dosenti**<br>Monika Garai Fodor ali təhsilini 1998-2003-cü illərdə Szent İştvan Universitetinin İqtisadiyyat və Sosial Elmlər fakültəsində almışdır. Daha sonra həmin universitetdə Menecment və Biznes idarəçiliyi ixtisası üzrə doktorantura təhsili alan M.Fodor “Qida istehlakının təhlili və institusianal iaşədə üstünlüklər” mövzusunda dissertasiya işini müdafiə edərək 2009-cu ildə Ph.D. elmi dərəcəsinə layiq görülmüşdür. Macarıstanın Obuda Universiteti Károly Keleti Biznes və İdarəetmə fakültəsinin dosenti, həmçinin həmin fakültənin dekanıdır. Tədqiqat sahələrini İstehlakçı davranışının dəyər əsasında təhlili; Müştəri və istehlakçı davranışı baxımından marketinq kommunikasiyası tendensiyalarının təhlili və təsirinin qiymətləndirilməsi; İş yerinin seçiminə və işəgötürən brendinə təsir edən amillərin təhlili; Sağlamlıq şüurunun və sağlamlıq mədəniyyətinin nəsillərə xas təhlili və s. istiqamətlərdə tədqiqatlar təşkil edir. Czestochowa Texnologiya Universitetində, Varşava İqtisadiyyat Məktəbində, Tiran Avropa Universitetində, Kluj-Napoka Babes-Bolyai Universitetində "Elektrik mühəndisliyi" ixtisası üzrə təcrübə proqramlarında iştirak etmişdir. Bir sıra |

| | |
|---|---|
| | beynəlxalq və yerli layihələrin layihə meneceri, tədqiqatçısı, layihə menecerinin köməkçisi, aparıcı elmi işçisi olmuşdur. Macarıstan Elmlər Akademiyasının Kənd Təsərrüfatı Elmləri Bölməsinin Marketinq Təlimçiləri Klubunun və Davamlı İnkişaf üzrə Macarıstan Biznes Şurası “Gələcəyin Liderləri” İstedad Proqramının Peşəkar Münsiflər Heyətinin üzvüdür. Tədqiqat sahəsi üzrə nüfuzlu elmi nəşrlərdə çap olunan 100-ə yaxın elmi əsərin müəllifidir. Belə ki, onun Google Schoolar elmi bazasında məqalə sayı 77, h-indeksi 9, i10 indeksi 9, istinad sayı 265; Research Gate elmi bazasında məqalə sayı 75, istinad sayı 226-dır.<br>https://uni-obuda.hu/szemely/dr-habil-garai-fodor-monika/ |
|  | **Ana-Maria Bolboriçi – Rumıniyanın Brasov Transilvaniya Universitetinin Sosiologiya və Kommunikasiya fakültəsinin dosenti və “Erasmus+” proqramının koordinatoru**<br>Ana-Maria Bolboriçi ali təhsilini 1994-1998-ci illərdə Brasov Transilvaniya Universitetində Sosial və Kommunikasiya elmləri ixtisası üzrə almışdır. Doktorantura təhsilini Kluj-Napoka Babes-Bolyai Universitetində Siyasi elmlər və idarəetmə ixtisası üzrə alan A. Bolboriçi 2011-ci ildə “Avropa İttifaqının diplomatiyası və XXI əsrin əvvəllərində Yaxın Şərqdə böhran” mövzusunda dissertasiya işini müdafiə edərək beynəlxalq münasibətlər sahəsində Ph.D. elmi dərəcəsinə layiq görülmüşdür. 2022-ci ildən Brasov Transilvaniya Universitetinin Sosiologiya və Kommunikasiya fakültəsinin dosentidir. Tədqiqat sahəsini Beynəlxalq münasibətlər və diplomatiya; Avropa institutları; Beynəlxalq hüquq; Sosial qanunvericilik üzrə araşdırmalar təşkil edir. 2000-2003-cü illərdə Buxarest Politexnik Universitetində məsləhətçi müəllim, 2003-2006-cı illərdə Brasov Transilvaniya Universitetinin Sosiologiya və Kommunikasiya fakültəsinin müəllimi, 2006-2022-ci illərdə həmin fakültənin baş müəllimi, 2022-ci ildən isə dosentidir. Lucian Blaga Universitetində (ULBS), Norveç Cənub-Şərqi Universitetində, Qalile Beynəlxalq İdarəetmə İnstitutunda, Yaxın Şərq və Dini Araşdırmalar Mərkəzində, Buxarest Politexnik Universitetində sosial elmlər sahəsi üzrə təcrübə proqramlarında iştirak etmişdir. Tədqiqat sahəsi üzrə nüfuzlu elmi nəşrlərdə dərc olunan 60-a yaxın məqalənin müəllifidir. Belə ki, A.Bolboriçinin Google Scholar elmi bazasında məqalə sayı 28, h-indeksi 4, i10 indeksi 2, istinad sayı 61; Research Gate elmi bazasında məqalə sayı 30, istinad sayı 50-dir.<br>https://www.unitbv.ro/contact/comunitatea-unitbv/1873-bolborici-ana-maria.html |
|  | **prof. Ramona Rupeika-Apoqa - Latviya Universitetinin professoru və maliyyə üzrə aparıcı elmi işçisi**<br>Ramona Rupeika-Apoqa bakalavr və magistr təhsilini Latviya Universitetinin Biznes, İdarəetmə və İqtisadiyyat fakültəsində almışdır. 1999-2003-cü illərdə Latviya Universitetində İqtisadiyyat ixtisası üzrə doktorantura təhsili alan R.Rupeika-Apoda dissertasiya işini müdafiə edərək Ph.D. elmi dərəcəsinə layiq görülmüşdür. 2016-cı ildən Latviya Universitetinin professorudur. Tədqiqat sahəsini Maliyyə xidmətləri bazarı; İnvestisiya bazarlarının təhlili; Blokçeyn və Kriptovalyuta Ekosistemi; Virtual valyuta sistemləri və s. |

| | |
|---|---|
| | sahələrdə araşdırmalar təşkil edir. Müxtəlif illərdə Latviya Universitetinin Biznes, İdarəetmə və İqtisadiyyat kafedrasının aparıcı elmi işçisi, müəllim, kafedra müdiri vəzifələrində çalışmışdır. Bir sıra yerli və beynəlxalq layihələrdə layihə meneceri, aparıcı elmi işçi, həmçinin Norveç Maliyyə Mexanizmi Tədqiqat və Təqaüd Proqramının layihə rəhbəri olmuşdur. 2015-ci ildən Latviya Elmlər Şurasının İqtisadiyyat və İdarəetmə sahəsi üzrə eksperti, 2020-ci ildən Avropa Komissiyası və COST üzrə xarici ekspert, 2021-ci ildən Kosovo Akkreditasiya Agentliyində ali təhsil müəssisələrinin və proqramlarının qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının eksperti kimi fəaliyyət göstərir. "Journal of Risk and Financial Management (MDPI)", "International Journal of Economics & Business Administration","Journal of Finance and Financial Law" və s. elmi jurnalların redaksiya heyətinin üzvüdür. 2014-cü ildən isə "Nordic-Baltic Corporate and International Finance Network (NBCIF)" təsisçisidir. Almaniya, Lixtenşteyn, Litva, Rusiya, Türkiyə, Yunanıstan, Polşa və Norveçdə beynəlxalq təcrübə proqramlarında iştirak edib və xarici ölkələrin universitetlərində mühazirələr deyib. Maliyyə sahəsində tədris materiallarının və nüfuzlu elmi nəşrlərdə çap olunan 150-yə yaxın elmi əsərin müəllifidir. Belə ki, onun Google Scholar elmi bazasında məqalə sayı 83, h-indeksi 19, i10 indeksi 29, istinad sayı 1009; Research Gate elmi platformasında məqalə sayı 56, istinad sayı isə 708-dir.<br>https://www.bvef.lu.lv/en/about-us/departments/department-of-finance-and-accounting/ |